**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*AZƏRBAYCAN DİLİ VƏ ƏDƏBİYYATININ TƏDRİSİ METODİKASI KAFEDRASI*

# QRAMMATİKA PROBLEMLƏRİ

**fənninin**

**PROQRAMI**

*(Ali təhsilin magistratura səviyyəsi üçün)*

Filologiya fakültəsi Elmi Şurasının 10 oktyabr 2015-ci il tarixli 1 saylı iclas protokolu ilə təsdiq edilmişdir

**Bakı – 2015**

Tərtib edən: Hüseyn ƏSGƏROV,
filologiya üzrə elmlər doktoru, professor

Rəyçi: Rəhilə Quliyeva,
filologiya üzrə fəlsəfə doktoru, dosent

Redaktor: Məhəmməd Məmmədov,
filologiya üzrə fəlsəfə doktoru, dosent

# Qrammatika problemləri

## Giriş

Kafedranın magistrləri universitet təhsilinin bakalavr pilləsində "Müasir Azərbaycan dili" fənninin bütün bölmələrini / fonetika və fonologiya, orfoepiya və orfoqrafiya; leksikologiy və leksikoqrafiya, söz yaradıcılığı və frazeologiya; qrammatika – morfologiya və sintaksis/ keçiblər. Bu bölmələr arasında qrammatika xüsusi yer tutur ,əhatəsinə və əhəmiyyətinə görə bölmələrin hamısından fərqlənir , həm də , nisbətən, çətin öyrənilir. Eyni zamanda bu sahədə mübahisəli cəhətlər çoxdur.

Bunları nəzərə alaraq, kafedra magistraturada fənnin qrammatika hissəsini tədrisə daxil edilməsini lazım bilmişdir.Burada da problematik mövzulara üstünlük vermək nəzərdə tutulur ki, onlar nəzəri səciyyəli olsun və biliyin dərinləşməsinə xidmət eləsin. Bu mənada kursun ağırlığı sintaksisin üzərinə düşür.

"Qrammatika problemləri" fənninə magistraturada 64 saat dəsr yükü müəyyənləşdirilmişdir.Bu dərs yükü formal olaraq mühazirə və seminar saatlarına (32-32) bölünür. Mahiyyət etibarilə isə bu bölgü şərti xüsusiyyət daşıyır. Burada mühazirələrlə seminarları dəqiqliklə aparılmır, fərqləndirmək olmur. Dərslər daimi mükalimə əsasında aparılır. Bu sahədə yazılış əsərlərin müzakirəsinə də xüsusi vaxt ayrılır.

Fənnin tədrisi qrammatika təliminin ümumi nəzəri məsələlərindən başlanır və konkret problemlər üzrə davam etdirilir.Bu hissə ,qrammatikanın hissələrinə uyğun olaraq, iki yere ayrılır: 1) Morfologiya problemləri; 2) Sintaksis problemləri .Burada morfologiyanın və sintaksisin mövzularının hamısının ardıcıl adı verilmir,yəni kurs tədrisin bakalavr pilləsindəki "Müasir Azərbaycan dili. Qrammatika" fənnini təkrar etmir. Burada tədris daha elmi –nəzəri istiqamətli seçmə problemlər üzrə aparılır; qrammatikaya aid əsərlər elmi müzakirələrə cəlb edilir.

## Mühazirə

**I. Qrammatika və dilin qrammatik quruluşu. Morfologiya qrammatikanın hissəsi kimi .**

1.Morfologiyanın tədqiqat obyekti. Morfologiya və söz yaradıcılığı - 2 saat.

2.Sözün quruluşu və ya morfoloji quruluşu - 2 saat.

**II. Nitq hissələri problemi.**

3.Nitq hissələri və cümlə üzvü problemi . Söz leksik vahid kimi və söz nitq hissəsi kimi -2 saat.

4.Eyni sözün yalnız bir və ya iki ( daha artıq ) nitq hissəsinə aid ola bilib – bilməməsi məsələsi.Nitq hissələrinin sayı və qrammatika kitablarında düzülüşünün qanunauyğunluğu - 2 saat.

**III.Qrammatika (morfoloji) kateqoriyalar.**

5. Ümumi ,şəxs – xəbərlik və kəmiyyət kateqoriyaları -2 saat.

**IV. Nitq hissələrinin təsnifi prinsipləri.**

6.Əsas nitq hissələrinin təsnifi - 4 saat.

7.Köməkçi nitq hissələrinin təsnifi – 2saat .

**V.Söz birləşmələri problemi.**

8.Dil sistemində söz birləşmələrinin yeri .Söz birləşmələrinin tərəfləri arasında məna və qrammatik əlaqələr – 2 saat.

9.Söz birləşmələrinin təsnifi -2 saat .

**VI.Cümlə problemi.**

10.Cümlə üzvü problemi – 2 saat .

11. Cümlənin növləri problemi – 2 saat .

12.Azərbaycan dilində əlavə sözlər və əlavə cümlələr məsələsi – 2 saat .

13. Mürəkkəb cümlə .Tabeli mürəkkəb cümlənin əmələ gəlməsi və təkamülü haqqıda mülahizələr - 4 saat .

## Məşğələ

## Morfologiya üzrə əsərlərin müzakirəsi

**1."Azərbaycan dilinin qrammatikası" kitabı ( Azərb.EA-nın nəşri ,1951) -2 saat.**

Bu, Azərbaycan dilinin iri həcmli ilk qrammatikasıdır. Burada ilk dəfə olaraq, morfologiya problemlərinin nisbətən ətraflı izahına cəhd edilib,bəzi məsələlər haqqında yeni söz deyilibdir.Bir sıra nöqsanlarına baxmayaraq, Azərbaycan dili qrammatik quruluşunun tədqiqi tarixində əhəmiyyətli hadisə kimi qalır,uzun zaman "Elmi qrammatika " adlandırılmışdır.

**2.M.Hüseynzadənin "Müasir Azərbaycan dili" kitabı (B.,1954, 1963, 1973, 1983) – 4 saat.**

Bu kitab dörd dəfə nəşr edilmişdir.1954-cü il nəşrində morfologiya hissəsi ilə birlikdə fonetika və leksika hissələri də var. Morfologiyaya aid hissə də tam deyil, fellə bitir. Dərs vəsaiti qrifi ilə çap olunmuşdur, felə aid tarixi məlumatlar da var. 1963-cü il nəşrində morfologiya bütövlükdə verilmiş, ancaq fonetika və leksika hissələri də qismən saxlanılmışdır. 1973, 1983-cü il nəşrləri ancaq morfologiya məsələlərini əhatə edir.

**3. "Azərbaycan dilinin qrammatikası" kitabı (Azərb. EA nəşri, 1960) – 2 saat.**

Bu kitab həm 1951-ci ildə nəşr edilmiş, "Azərbaycan dilinin qrammatikası"ndan, həm də M.Hüseynzadənin "Müasir Azərbaycan dili" (1954-cü il) kitabından fərqlənir. əvvəlkilərdən fərqli olaraq, burada fonetika və leksika bəhsləri yoxdur; morfologiya tam əhatə olunmuşdur.

**4. "Müasir Azərbaycan dilinin morfologiyası" kitabı (APİ nəşri, 1961) – 2 saat.**

Bu dərslik o zaman Azərbaycan Dövlət Pedaqoji İnstitutunun müəllimləri tərəfindən hazırlanmışdır. Adından göründüyü kimi, ancaq morfologiyaya aid məsələləri əhatə edir.

**5. "Müasir Azərbaycan dili" kitabı (B., 1954, 1963, 1973, 1983) – 2 saat.**

Bu, "Elm" nəşriyyatının "Müasir Azərbaycan dili" adı ilə çap etdiyi üç cildliyin ikinci cildidir. Həcminə görə, o vaxta qədər nəşr edilən morfologiyaların hamısından böyükdür, faktik materialı çoxdur.

**6. Ağamusa Axundov "Felin zamanları" kitabı (B., 1961-ci il) – 2 saat.**

Felin zaman kateqoriyası haqqında yazılanlar arasında bu əsər fərqlənir. Tədrisdə bu əsər fonunda o biri tədqiqatlar da nəzərə alınır, müqayisələr aparılır. Zaman anlayışı fəlsəfi-məntiqi və qrammatik kateqoriya kimi, əsas cəhətləri nəzərdən keçirir.

**7. Həsən Mirzəyevin "Azərbaycan dilində fel" kitabı (B., 1986) – 2 saat.**

Təsirli və təsirsiz fel məsələsi dilçilikdə mühüm problem hesab olunur. Bu başqa qrammatik kateqoriyaların aydınlaşdırılması üçün də əhəmiyyətə malikdir.

Bu kitab "Azərbaycan dilində fel" kimi ümumi ad daşısa da, əslində təsirlik və təsirsizlik kateqoriyasına həsr edilmişdir.

Müzakirələr kitablar üzrə də, ayrı-ayrı nitq hissələri üzrə də aparıla bilər. Tədris prosesində bunu müəyyənləşdirmək olur.

**Sintaksis üzrə əsərlərin müzakirəsi**

**8. "Azərbaycan dilinin qrammatikası" (Azərb. EA nəşri, 1959) – 2 saat.**

Bu, Azərbaycan dilçiliyində ilk iri həcmli sintaksis kitabıdır. Sintaksisin hər iki bölməsi (söz birləşməsi və cümlə) əhatə olunmuşdur.

**9. "Müasir Azərbaycan dili" kitabı (III cild, Azərb. EA nəşri, 1981) – 2 saat.**

Bu, "Elm" nəşriyyatının "Müasir Azərbaycan dili" adı ilə buraxdığı üç cildlik əsərin üçüncü cildidir. Sintaksis problemlərini əhatə edir.

**10. Ə.Abdullayevin, Y.Seyidovun, A.Həsənovun "Müasir Azərbaycan dili" kitabı (IV h., Sintaksis, 1985) – 2 saat.**

Bu, ali məktəb dərsliyidir, dörd cildlik "Müasir Azərbaycan dili" dərsliyinin dördüncü cildidir.

Sintaksis məsələləri əhatə olunmuşdur; dərslik kimi, orijinal cəhətləri çoxdur. Dərsliyin hissələri həmin hissələrin müəlliflərinin tədqiqat işləri ilə əlaqədardır.

**11. Zərifə Budaqovanın "Müasir Azərbaycan ədəbi dilində sadə cümlə" kitabı (B., 1963) – 2 saat.**

Cümlə, eləcə də sadə cümlə problemi haqqında çox yazılıbdır, nəzərdə tutulur ki, tədqiqat həmin kitab fonunda tədrisə cəlb edilsin.

**12. Yusif Seyidovun "Azərbaycan dilində söz birləşmələri" (1966, 1992) – 4 saat.**

Söz birləşmələrinə aid ilk monoqrafik tadqiqat əsəridir. Söz birləşmələri problemi ətraflı elmi təhlilini tapıbdır.

**13. Ə.Abdullayevin "Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr" (B., 1964, 1974) – 4 saat.**

Tabeli mürəkkəb cümlə problemi üzrə türkologiyada ən yaxşı tədqiqat hesab olunur; problemi tam ehate edir.

Kitabların müzakirəsində bəhslər üzrə başqa əsərlər – monoqrafiyalar, ali və orta məktəb dərslikləri və s. nəzərə alınır və müqayisələr aparılır.

**Ədəbiyyat: müzakirə olunan əsərlər.**